# ORDUMUZUN YARADICILARINDAN BİRİ...

**Qarşıdan şanlı ordumuzun bayramı olan - 26 iyun Silahlı Qüvvələr günü gəlir. Düz 103 il bundan öncə, 1918-ci ildə Şərqdə ilk parlamentli respublika olan Azərbaycan Demokratik Respublikasının yaradılması zamanı, dövlətin hərbi işi Azərbaycanın iki görkəmli oğluna tapşırılmışdır. Artilleriya general-leytenantı Səməd bəy Mehmandarov hərb naziri, daha bir artilleriya general-leytenantı Əliağa Şıxlinski isə, hərb nazirinin müavini təyin olunur. Qısa zaman ərzində bu iki şəxsiyyətin gərgin səyləri nəticəsində, Azərbaycan ordusu yaradılır. Ordunun xeyli cəbhəxanası formalaşır. Silahlı Qüvvələrimizin bayramı ərəfəsində biz Azərbaycanın dünyaca məşhur artilleriya generalı Əliağa Şıxlinski haqda söhbət açacağık.**



Artilleriya general-leytenantı Əliağa Şıxlinski haqqında bu günə kimi, bir çox kitablar, məqalələr və sənədli filmlər çəkilib. Ə.Şıxlinskinin keşməkeşli ömür yolu barədə, biz vaxtı ilə Müdafiə Nazirliyinin Hərbi Elmi Mərkəzində çalışan araşdırmaçı-yazıçı polkovnik-leytenant Şəmistan Nəzirlinin kitablarından oxumuşduq, onun general haqqında müxtəlif televiziya verilişlərində danışdığı maraqlı söhbətləri izləmişdik.

Bildiyimiz kimi, general-leytenant Əliağa Şıxlinski həyatının bir çox hissəsini Çar ordusunda keçirərək, misilsiz xidmətlər göstərib və bir çox mükafatlara layiq görülmüşdür. Baxmayaraq ki, Ə.Şıxlinski uzun müddət, doğulub boya-başa çatdığı doğma diyardan uzaq düşüb, lakin heç vaxt Vətənini unutmamışdır. Əfsanəvi general xidmət etdiyi uzaq bölgələrdə də, daim Azərbaycan ordusunun yaradılması fikrini özündə saxlayır. Çar ordusunda 1904-1905-ci illərdə Rus-Yapon müharibəsi, 1914-cü ildə isə Cahan Müharibəsində iştirak edərək, böyük təcrübə qazanan general, nəhayət, öz arzusuna çatır. Belə ki, 1917-ci ilin noyabı ayının 15-də Qafqaza qayıdan görkəmli sərkərdəmiz, ilk dəfə Tiflisdə azərbaycanlılardan ibarət milli korpus yaradır. Bununla da şanlı generalımızın doğma Vətəni Azərbaycan üçün tarixə yazılan xidmətləri başlamışdır.

General Əliağa Şıxlinski 1918-ci ilin oktyabrında Gəncədə yeni yaratdığı Milli Azərbaycan korpusunun əsgərləri qarşısında çıxışı zamanı demişdir: "Azərbaycanlılar birdəfəlik bilməlidirlər ki, doğma ordu əsla tənbəlxana deyil və onun mövcudluğu hər hansı bir azərbaycanlının maddi rifahını daha da yaxşılaşdırmaq üçün yaranmayıb. Ordu xalqın istinadgahıdır - bura xalqın ləyaqətli oğulları gəlməlidir".

**Hərbidə qazandığı böyük təcrübədən istifadə edərək, general-leytenant Əliağa Şıxlinski gecə-gündüz çalışaraq Milli ordumuzun yaradılmasında əlindən gələni əsirgəmir. Zabit və əgərlərin yetişdirilməsində, cəbhəxananın formalaşdırılmasında böyük işlər görülmüşdür.**

1918-ci ildə torpaqlarımızın bütövlüyü uğrunda xalqımızın əfsanəvi generalı yeni yaratdığı Milli ordu ilə, daşnak Ermənistanına qarşı döyüşüb, doğma Vətənimizin parçalanmasına imkan verməyib. 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının mövcudluğu zamanı, general Səməd bəy Mehmandarovun və general Əliağa Şıxlinskinin yaratdığı Milli ordumuz, həm formalaşır, həm hərbi məktəblərdə milli kadrlar yetişdirir, eyni zamanda bolşevik-daşnak birləşmələrinə qarşı vuruşurdu. Bu iki ilə yaxın dövr ərzində, yeni yaranmış Milli ordumuzun oğulları sübut etdi ki, peşəkar hərbi rəhbərlərin komandanlığı altında, böyük uğurlara çatmaq mümkündür.

Əfsuslar olsun ki, 1920-ci ildə Sovet imperiyası gənc Azərbaycan Demokratik Respublikasını işğal edir, bu işğal zamanı yeni yaranmış Milli ordumuz hissə-hissə dağıdılır.

General Ə.Şıxlinski işğaldan sonra da doğma Azərbaycana xidmət göstərməkdə davam edir. Bir müddət Bakı Qarnizonu Hərbi Elmi Cəmiyyətinin sədr müavini işləyən general,



sonradan Hərbi İnqilab Şurası yanında Azərbaycan Hərbi Nəşriyyat Kollegiyasının sədri kimi çalışmağa başlayır. 1924-cü ildə isə Birləşmiş Hərbi Komanda Heyəti Məktəbinə rəis müavini təyin edilir. **Həmin dövrdə elmi-pedaqoji işlə məşğul olan Əliağa Şıxlinski 1926-cı ildə "Rusca-türkcə" hərbi lüğəti hazırlayıb çap etdirmişdi. Bu lüğət o dövrdə ən faydalı və əvəzolunmaz kitablardan biri idi. Həyatı boyu milləti və doğma Vətəni üçün çalışan general Əliağa Şıxlinski zabit heyətimizin püxtələşməsi və peşəkarlaşması yolunda artilleriya qoşunlarına aid** müxtəlif hərbi-elmi məqalələr və yazılar çap etdirir.

1928-ci ildə "Rusca-Azərbaycanca qısa hərbi lüğət" çap etdirən Şıxlinski məhz buna görə SSRİ Hərbi İnqilab Şurasının Fəxri Fərmanı ilə təltif edilir. Həyatı boyu xalqına bir fayda vermək amalı ilə yaşayan Əliağa Şıxlinski 1929-cu ildə səhhəti ilə əlaqədar istefaya çıxır. Məşhur generalımız 18 avqust 1943-cü ildə Bakıda vəfat edib.

Sovet imperiyasının xalqımıza qarşı törətdiyi bütün zülmlərə və uzun sürən bu işğala baxmayaraq, 70 ildən sonra, doğma Azərbaycanımız yenidən müstəqilliyə qovuşur. Bununla da, ölkəmizin tarixində yeni səhifə yazılmağa başlayır. 1991-ci ildə Respublikamızın yaranması zamanı, 1918-ci ildəki kimi, ordumuz da formalaşmağa başlamışdır.

**1918-ci ildə ordumuzun yaradıcılarından biri olan general-leytenantı Əliağa Şıxlinskinin xatirəsi xalqımızın yaddaşında daim yaşayacaq.**

Bu yaxınlarda general Əliağa Şıxlinskinin varisi, uzun müddət Müdafiə Nazirliyində hərbçi kimi xidmət etmiş Solmaz Həsənpaşa qızı Şıxlinskayanın, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevə, babası general-leytenant Əliağa Şıxlinskinin məzarının tam bərpa olunması ilə bağlı müraciət etmişdir. Ölkəmizin başçısı öz növbəsində, Vətənimizin unudulmaz generallarından biri olan Əliağa Şıxlinskinin zamanında Vətəninə göstərdiyi xidmətləri nəzərə alaraq, bu müraciətə müsbət cavab vermiş və Ə.Şıxlinskinin məzarı tam bərpa olunmuşdur.

Prezidentimizin sərəncamı əsasında, Ə.Şıxlinskinin məzarı ilə yanaşı, onun həyat yoldaşı Nigar xanım Şıxlinskayanın və onun anası Səadət xanımın məzarları tam bərpa olunmuşdur. Hazırda Yasamal qəbirstanlığında yerləşən generalın məzarı önündə onun büstü ucalır.

26 iyun Silahlı Qüvvələr günü ərəfəsində, Milli ordumuzun yaradıcılarından biri olan, general Əliağa Şıxlinski ilə yanaşı, 2020-ci ildə, 30 ilə yaxın işğala son qoymuş və xalqımızın əbədi düşməni olan erməni faşistlərinə qarşı 44 gün ərzində vuruşan və böyük qələbə qazanan şanlı ordumuzu da qeyd etməliyik. Bu 44 gün ərzində ordumuzun zabit və əsgərləri Vətənimiz üçün yeni tarix yazaraq, bütün dünyaya göstərdilər ki, Azərbaycan ordusu məğlubiyyətlə barışan ordulardan deyil və zamanı gəldikdə düşmən üzərində qələbə qazanaraq ərazi bütövlüyünü bərpa edəcək. Hazırda ordumuzda İkinci Qarabağ savaşında iştirak etmiş bir çox bacarıqlı və Vətəninə ləyaqətlə xidmət edən zabit və generallarımız var. Azərbaycan ordusu, bundan sonra da, doğma torpaqlarımızda məskun salmış bu erməni daşnaklarına qarşı vuruşacaq və Tanrının köməyi ilə daha böyük qələbələrə nail olacaq.

Zamanında Azərbaycan ordusunu yaradan general Əliağa Şıxlinskinin davamçıları yetişməkdə davam edir, bu gün biz Qafqazda ən qüdrətli və düşmən üzərində böyük qələbə qazanan orduya malik olan müstəqil Azərbaycanın vətəndaşlarıyıq, ruhun şad olsun cənab general.

**E.o. zabit**
**İsmayıl ABDULLAYEV**